1_Layout 1 14.01.2021 17:36 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 1 (591)

16 yanvar 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib

**Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.**



**Prezident İlham Əliyevin giriş nitqi**

- Bu gün biz keçən ilin yekunlarını müzakirə edəcəyik, 2021-ci ildə görüləcək işlər haqqında danışacağıq. Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim olub və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yollarla geri qaytardıq. Beləliklə, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu. Biz bunu hərbi yollarla həll etdik. Baxmayaraq, uzun illər ərzində beynəlxalq vasitəçilər, demək olar, bütün aparıcı beynəlxalq təşkilatlar bizə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Biz də deyirdik ki, əgər belədirsə, onda münaqişə sülh yolu ilə həll olunsun, biz də bunun tərəfdarıyıq. Müharibə dövründə mən dəfələrlə Azərbaycan xalqına müraciət edərək və xarici kütləvi informasiya vasitələrinə müsahibələr verərək deyirdim ki, Ermənistan tərəfi bizə tarix versin, onlar nə vaxt bizim torpaqlarımızdan öz silahlı qüvvələrini geri çəkirlər və biz dayanırıq. Əkstəqdirdə, axıra qədər gedəcəyik və bunu etdik. Beləliklə, şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi, göstərdi ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən dəfələrlə demişdim ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, biz bu məsələni hərbi yolla həll edəcəyik və belə də oldu – hərbi yolla. Ondan sonra məsələ siyasi yolla həll olundu və tarixi ədalət bərpa edildi.

Mən son illər ərzində ölkəmizin hərtərəfli inkişafını dilə gətirərək deyirdim ki, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik. Ermənistan ordusu 44 gün ərzində darmadağın edildi, demək olar ki, Ermənistan ordusu yoxdur. Müharibədən sonra müşahidə olunan mənzərə onu göstərir ki, bu gün Ermənistan silahlı qüvvələri faktiki olaraq tam dağıdılıb. Ermənistan məğlub edilib və biz istədiyimizə 44 gün ərzində nail ola bilmişik. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, keçmiş Hadrut rayonunu, Xocavənd rayonunun böyük hissəsini, Suqovuşan qəsəbəsini, Murovdağ silsiləsini və Şuşa şəhərini hərbi yollarla azad etdik. Bütövlükdə 300-dən çox yaşayış məntəqəsi hərbi yollarla işğaldan azad edildi. Bunun nəticəsində Ermənistan faktiki olaraq diz çökdü, məcbur olub noyabrın 10-da kapitulyasiya aktına imza atdı. Beləliklə, Ağdam, Laçın və Kəlbəcər rayonları bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Bu Qələbə tarixdə əbədi qalacaq. Bu Qələbə bütün dünyaya sübut etdi ki, - bir daha bunu qeyd etmək istəyirəm, - bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən demişdim ki, tarixi Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq. Mən demişdim ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Mən demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Demişdim ki, biz bu məsələni istənilən yolla həll edəcəyik və etdik, bütün təzyiqlərə, təhdidlərə baxmayaraq. Baxmayaraq ki, dünyada kifayət qədər güclü erməni lobbisi var. Dünyada bir çox aparıcı dövlətlər Ermənistanı dəstəkləyir və müharibə dövründə biz bunu açıq-aşkar görürdük, bəzi ölkələr bunu gizlədə bilmirdilər. Bu dəstək Ermənistana nə verdi? Heç nə. Bizim gücümüz, iradəmiz qarşısında bu dəstək sıfıra bərabər oldu. Hər kəs gördü ki, bizi heç kim və heç nə dayandıra bilməz. Mən deyəndə ki, biz axıra qədər gedəcəyik, sözümə əməl etdim. O vaxt dayandıq ki, Ermənistan öz alçaldıcı məğlubiyyətini etiraf etdi, diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu. Hesab edirəm ki, bu, Ermənistan üçün tarixi dərs oldu. Onlar bir daha Azərbaycan xalqının böyüklüyünü gördülər. Baxmayaraq ki, işğal edilmiş bütün torpaqlarda vandalizm aktları törədildi, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz dağıdıldı və ya təhqir edildi, bütün yaşayış binalarımız dağıdıldı, Ağdam, Füzuli şəhərləri yoxdur, kəndlər yoxdur, Cəbrayıl, Qubadlı, Zəngilan şəhərlərində tək-tük bina qalıb, orada da Ermənistan hərbçiləri yerləşmişdilər. Kəlbəcər və Laçın rayonlarında daha çox qanunsuz məskunlaşma aparılmışdır. Ancaq Ermənistana o rayonlardan çıxmaq üçün vaxt verildiyi müddət ərzində onlar oranı da dağıtmışlar, bütün dünyaya öz vəhşiliklərini göstərmişlər. Bütün dünyanın gözü qarşısında evləri yandırıb, meşələri kəsib, qırıb, yandırıb, vandalizm aktları törətmişlər. Bütün dünya gördü ki, biz kiminlə üz-üzə idik. Bu vəhşiliyin, bu qəddarlığın bəlkə də tarixdə analoqu yoxdur. Heç İkinci Dünya müharibəsində işğalçı qüvvələr bu qədər qəddarlıq törətməmişlər. Onlar hesab edirdilər ki, biz bu bölgələrə qayıtmayacağıq, amma biz qayıtmışıq və qayıdırıq. Bu gün biz Böyük Qayıdış haqqında danışacağıq.

Biz tarixi ədaləti bərpa etdik. Biz bütün dünyaya gücümüzü göstərdik. Göstərdik ki, heç kim bizim iradəmizin qabağında dura bilməz. Eyni zamanda, məsuliyyət göstərdik, ədalət göstərdik, Ermənistan ərazisinə girmədik. Baxmayaraq ki, Ermənistan ərazisindən bizə qarşı namərd atəşlə törədilən hərbi cinayət nəticəsində onlarla mülki şəxs həlak oldu, şəhərlərimiz bombalandı. Biz beynəlxalq hüquqa hörmətimizi göstərdik. Baxmayaraq ki, mənfur düşmən üçün heç bir mənəvi çərçivə yoxdur, heç bir mənəvi dəyər yoxdur. Amma mən demişdim ki, biz özümüzü onlar kimi apara bilmərik, biz azərbaycanlıyıq, biz özümüzə hörmət edən xalqıq. Biz döyüş meydanında düşməni çökdürdük. Döyüş meydanında düşmənə elə dərs verdik ki, onlar bu günə qədər bu dərsdən özlərinə gələ bilmirlər. Bu gün Ermənistanı bürümüş böhran onların işğalçılıq siyasətinin nəticəsidir. Gərək bizim torpaqlarımızdan sülh yolu ilə çıxardılar, biz onlara şans vermişdik. Gərək öz xoşu ilə çıxardılar bizim torpaqlarımızdan, amma biz bunun tamamilə əksini görürdük. Qanunsuz məskunlaşma, şəhərlərimizin adlarının dəyişdirilməsi, Azərbaycanın tarixi, mədəni, dini irsinin silinməsi. Əfsuslar olsun ki, bəzi beynəlxalq təşkilatlar və şirkətlər onlara bu sahədə yardım etmişdilər. Bizim torpaqlarımızda qanunsuz biznes fəaliyyəti göstərilmişdir. Bu gün bu barədə də danışacağıq, artıq müvafiq göstərişlər verildi. O şirkətlər məsuliyyətə cəlb olunacaq. Onlar bunu bilsinlər və gözləsinlər bu günü. Oraya müxtəlif ölkələrin parlamentlərinin nümayəndələri gedirdilər, indi görüm necə gedirlər. Fransadan bir heyət getmişdi, parlament üzvləri. Əfsuslar olsun ki, sülhməramlı qüvvələr onlara bu icazəni vermişdilər. Halbuki, biz bu sülhməramlı qüvvələr qarşısında məsələ qoymuşduq ki, bizim icazəmiz olmadan heç bir xarici vətəndaş Dağlıq Qarabağa gedə bilməz. Nəticədə Fransa səfiri bizim Xarici İşlər Nazirliyinə çağırıldı, nota verildi. Biz səssiz qalmayacağıq.

İndi mənə məlumat verildi ki, Ermənistanın xarici işlər naziri Xankəndiyə gedib. Sənin orada nə işin var? Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir. Bu səfərlərə son qoyulmalıdır. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq. İndi münasibətlərin normallaşdırılması istiqamətində addımlar atılır. Rusiya öz vasitəçilik imkanlarını tərəflərə təqdim edib. Bu yaxınlarda Ermənistana və Azərbaycana səfər etmiş Rusiya hökumət nümayəndələrindən ibarət heyət əsasən bu mövzular haqqında söhbətlər aparmışdır.

Yaxşı, əgər münasibətlər normallaşacaqsa, o zaman belə təxribat xarakterli “səfərlərə” nə ehtiyac var? Nəyi göstərmək istəyirlər? Yenəmi bizi qıcıqlandırmaq istəyirlər? Unutmasınlar ki, onlara çox baha başa gəldi bu tipli addımlar. Ona görə bütün səfərlərə son qoyulmalıdır. Heç bir xarici vətəndaş bizim icazəmiz olmadan o əraziyə gedə bilməz. Heç bir beynəlxalq təşkilat, - ancaq Qırmızı Xaç istisna olmaqla, - oraya gedə bilməz. Bu, bizim ərazimizdir. Bütün dünya bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistanın xarici işlər naziri, sən kimsən ki, oraya gedirsən? Xəbərdarlıq edirik. Əgər buna oxşar addım təkrarlanarsa, bizim cavabımız çox sərt olacaq. Elə birinci dəfə biz Xarici İşlər Nazirliyi vasitəsilə onlara xəbərdarlıq etdik. Ondan sonra xəbərdarlıq başqa cür veriləcək. Onların ayağı oradan kəsilməlidir. Otursun öz ölkəsində.

Sülhməramlı qüvvələr. Onların orada funksiyası var. Noyabrın 10-da bu funksiya təsbit edildi. Baxmayaraq ki, indi onlar orada humanitar işlərlə məşğuldurlar, halbuki noyabrın 10-da imzalanmış Bəyanatda bu funksiya təsbit edilməyib, biz buna, necə deyərlər, göz yumuruq. Nə üçün? Çünki başa düşürük ki, orada insanlar yaşayır, başa düşürük ki, indi qış gəlib, hava soyuqdur. Orada müəyyən işlər görülməlidir ki, bu qış orada yaşayan ermənilər üçün problem yaratmasın. Ona görə biz imkan verdik. İndi yüklərin böyük hissəsi oraya Azərbaycan ərazisindən gedir. Biz imkan verdik. Bərdəyə qədər dəmir yolu ilə gedir. Ondan sonra maşınlarla Dağlıq Qarabağa aparılır. Əlbəttə, biz imkan verməyə də bilərdik.

Ermənistan 30 il bizim suyumuzu kəsib, 100 min hektar torpağı susuz qoyub. Baxmayaraq ki, həm Sərsəng, həm də Suqovuşan su anbarları o vaxt Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə və onun fəaliyyəti nəticəsində inşa edilmişdir. Ermənistan bizim suyumuzu kəsmişdi. Amma mən yenə də deyirəm, biz heç vaxt onların səviyyəsinə düşməməliyik. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar bizim vətəndaşlarımızdır. Mən demişəm, onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar. Ona görə biz bu imkanları verdik. Yoxsa Laçın dəhlizi ilə oraya yük daşımaq çox çətin məsələdir. Biz digər addımlar atdıq ki, orada humanitar işlər getsin. Yenə də deyirəm, noyabrın 10-da imzalanmış sənəddə bu yoxdur. Amma biz yenə də imkan veririk. Bu, bizim ürəyimizin nə qədər geniş olmasını göstərir. Hesab edirəm ki, noyabrın 10-da imzalanmış Bəyanat gələcək fəaliyyət üçün əsas olmalıdır. Bu Bəyanatdan başqa, hər hansı bir digər sənəd imzalanmayıb.

Eyni zamanda, imkan verdik ki, - söhbət bizim ərazimizdən keçən yollardan və azad edilmiş torpaqlardan gedir, - erməni vətəndaşlar Qubadlı rayonundan keçən yoldan istifadə etsinlər. Bunu gərək onlar qiymətləndirsin, yoxsa yox. Bu, bizim torpağımızdır. Başa düşürük ki, yol oradan keçib. Sovet vaxtında sərhədlərin o qədər də böyük əhəmiyyəti yox idi, orada yaşayan erməni əhalisi bəlkə də bilməyib ki, bu, Azərbaycan ərazisidir. Çünki kim onlara deyə bilərdi ki, bu, Azərbaycan ərazisidir. Onlar hesab ediblər ki, bu, Ermənistan ərazisidir. İndi biləndə ki, bu, Azərbaycan ərazisidir və Azərbaycan sərhədçiləri oraya gəlib yerləşiblər, əlbəttə, onlar stres keçiriblər. Amma yenə də mən göstəriş vermişdim ki, bir adamın burnu qanamamalıdır. Onlara başa salın ki, bu, bizim yerimizdir, bizim torpağımızdır, çıxıb getsinlər. Vaxt verdik onlara. Ermənistan tərəfi bizdən xahiş etmişdi ki, yanvarın 2-nə qədər vaxt verin. Biz də vaxt verdik. Vaxt verməyə bilərdik. Mən oraya bir hərbi dəstə göndərə bilərdim və görüm nə günə düşərdilər onlar. Bunu etdikmi? Yox! Amma onlar edərdilər. Onlar Kəlbəcəri işğal edəndə bizə vaxt vermədilər. Bizim vətəndaşlar oradan ayaqyalın Murov aşırımından, Ömər aşırımından keçərək çıxdılar. Bir çoxları da yolda donub, həlak oldular. Onlar bizə vaxt verdilər?

Onlar mülki əhaliyə qarşı soyqırımı törətmişlər, Xocalı soyqırımı, digər hərbi cinayətlər. Biz isə bizim azad edilmiş ərazilərdə diversiya ilə məşğul olanları əsir götürdük. Məhv etmədik. Dedim ki, əsir götürün, daha müharibə başa çatıb, daha qan tökmək lazım deyil. Bu, yenə də bizim humanist mahiyyətimizi göstərir. Bu, bizim ərazimizdə yerləşib və oradan çıxmaq istəməyən bir qüvvədir və bizə qarşı təxribatlar törədib, hərbi təxribatlar. Bunun nəticəsində hərbçilərimiz həlak olub. Biz isə yenə humanistlik göstərmişik. Onları əsir götürmüşük. Amma onlar hərbi əsir sayıla bilməz, çünki müharibə qurtarıb. Onlar terrorçudur, diversantdır. Onlar Xocavənd rayonuna Ermənistandan, Ermənistanın Şirak vilayətindən noyabrın 26-dan sonra gəlmişlər. Bunu hər kəs bilsin. Nə üçün gəlmişlər? Kim onları göndərib? Müharibə ayın 10-da qurtarıb, Bəyanat imzalanıb. Kim göndərir onları oraya? Əgər Ermənistan rəhbərliyi bu qanunsuz silahlı birləşmələrə nəzarət edə bilmirsə, bu, onların problemidir. Ona görə burada heç kim bizi ittiham edə bilməz.

Mən bir daha demək istəyirəm ki, biz bir çox hallarda humanistlik göstərmişik və Ermənistan tərəfi bunu qiymətləndirməlidir. Bunun müqabilində Ermənistan xarici işlər nazirinin bizim torpağımıza gəlməsi qəbuledilməzdir. Artıq mən demişəm, ümid edirəm ki, onlar düzgün nəticə çıxaracaqlar. Çıxarmasalar, onların böyük problemləri olacaq və yenə də peşman olacaqlar.

Beləliklə, müharibə başa çatdı. Biz istədiyimizə nail olduq. İndi artıq quruculuq dövrü başlayır. Biz bu gün bu barədə də danışacağıq.

**Məlumat üçün qeyd edək ki, müşavirədə Operativ Qərargahın rəhbəri, Baş nazir Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Baş nazirin müavini Şahin Mustafayev, Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Kənd təsərrüfatı naziri İnam Kərimov və Energetika naziri Pərviz Şahbazov çıxış ediblər.**

**Sonda dövlətimizin başçısı müşavirədə yekun nitqi söyləyərək, 2021-ci ilin də ölkəmiz üçün uğurlu olacağına əminliyini ifadə edib, həmçinin, Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzulayıb.**

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

2 - 2_Layout 1 14.01.2021 17:30 Page 1



# 20 YANVAR TARİXİMİZİN QƏHRƏMANLIQ SƏHİFƏSİDİR

*Qatil gülləsinə qurban gedərkən,*
*Gözünü sabaha dikdi şəhidlər,*
*Üçrəngli bayrağı öz qanlarıyla*
*Vətən göylərinə çəkdi şəhidlər.*

Bəxtiyar Vahabzadə



***20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli azadlıq istəyinin oyanış günüdür. Bu, həm də uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix, eyni zamanda, kimin kim olduğunu sübut edən növbəti bir imtahan idi.***





1990-cı il Yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağda erməni separatizminin geniş vüsət aldığı 1988-ci ildən başladı. Davam edən gərginliyin qarşısını almaq əvəzinə, SSRİ rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət törətdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna fövqəladə vəziyyət elan edilmədən yeridilərək, dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı, itkin düşdü. Sovet ordusunun və Daxili Qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək 82 nəfər amansızcasına qətlə yetirildi, 20 nəfər ölümcül yaralandı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə təkcə Bakı şəhərində 21 nəfər, yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər öldürüldü.

Ümumilikdə, Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz olaraq həbs edildi. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin, təcili tibbi yardım işçiləri və milis nəfərləri də var idi.

Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, doğma xalqı ilə həmrəy olduğunu göstərdi, SSRİ rəhbərliyinin bu qanlı hadisələrə gətirib çıxaran fəaliyyətinə kəskin etirazını bildirdi və hərbi əməliyyata rəhbərlik edənləri ifşa etdi. Ulu Öndər baş vermiş hadisələrin hüquqa, demokratiyaya, humanizmə və hüquqi dövlət quruculuğu prinsiplərinə zidd olduğunu, faciəni Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirərək, qırğını törədənlərin hamısının layiqincə cəzalandırılması yönündə tədbirlər görülməsinin vacibliyini söylədi.






20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı hərbi təcavüz, eyni zamanda, böyük bir cinayət idi. Faciə ümumxalq hüznünə çevrilsə də, bununla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini bütün dünyaya nümayiş etdirdi. Sovet ordusunun bütün amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın mərkəzi meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar izdihamlı matəm yürüşü keçirdi.

Haqq-ədalətin müdafiəsini, öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək, Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

**Xalqımız bütün şəhidlərin xatirəsini əziz tutur. Qəhrəmanlıq tariximizdə silinməz izlər qoyan şəhidlərimiz qəlbimizdə əbədi yaşayacaqlar!**

**baş leytenant Xədicə Hacızadə**

# Şəxsi heyət qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirir

Bu gün işğaldan azad edilən torpaqlarımızda müvafiq təhlükəsizlik tədbirləri görülür. Noyabr ayının 25-dən ordumuzun nəzarətinə keçən Kəlbəcər rayonunda da ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə xidməti postlar qurulub. 17072 saylı hərbi hissənin yüksək döyüş hazırlığı, möhkəm hərbi intizamı ilə fərqlənən xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant İlham İsmayılovun rəhbərliyi altında mayor Alqayıt Məhərovun komandiri olduğu post-patrul xidməti bölməsinin hərbi qulluqçuları Kəlbəcər Rayon Polis Şöbəsinin əməkdaşları ilə birgə rayonun ərazisində qurulan postlarda ayıq-sayıq fəaliyyət göstəriblər.



Mayor A.Məhərov bildirdi ki, şəxsi heyət qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməklə bərabər, döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün daima öz üzərində çalışır. O, şəxsi heyətin ümumi hazırlığı barədə məlumat verərkən nəzərə çatdırdı ki, hərbi qulluqçular yüksək mənəvi-psixoloji və döyüş hazırlığına malikdirlər. Hərbi qulluqçuların ruh yüksəkliyi döyüş hazırlığının qorunub saxlanılmasına birbaşa təsir edir.



Komandir şəxsi heyətin hər zaman qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə hazır olduğunu söylədi. Təhkim olunmuş döyüş texnikasının, silah-sursatın və aidiyyəti əmlakın vəziyyətinin qorunub saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də bu istiqamətdə əsas məqamlar kimi vacibdir.

Zabit qeyd etdi ki, post-patrul xidməti bölməsi yarandığı gündən öz vəzifələrindən irəli gələn fəaliyyətə cəlb olunub.

Ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə bölmənin şəxsi heyəti polis əməkdaşları ilə birlikdə Gəncə, Şəmkir, Göygöl şəhərləri və Goranboy rayonunda xüsusi karantin rejiminin tələblərinin icrasına nəzarətlə əlaqədar post-patrul xidmətini yerinə yetirir.

Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü səbəbindən ölkəmizin bütün ərazisində elan edilmiş hərbi vəziyyət dövründə komendant saatı tətbiq olunub. Komendant saatı ilə əlaqədar bölmənin şəxsi heyəti Gəncə şəhərində qurulan postlarda polis əməkdaşları ilə birlikdə xidmət aparıb.

Bölmə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Arzu Rəsulov vurğuladı ki, xidmətin uğurlu təşkilini, şəxsi heyətin peşəkarlığını şərtləndirən mühüm amillərdən biri də hərbi qulluqçuların döyüş ruhunun yüksəldilməsidir. Bunun üçün onların mənəvi-psixoloji hazırlığına ciddi diqqət yetirilir.

Praktiki məşğələlər bölmə komandirinin müavini kapitan Xansu Qədimovun rəhbərliyi altında keçirilir. Kapitan X.Qədimov qeyd etdi ki, təlimlər zamanı şəxsi heyətə təhkim olunmuş xüsusi vasitələrdən düzgün istifadə qaydaları, təhlükəsizlik məsafəsinin gözlənilməsi, o cümlədən, xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri öyrədilir. Bu məşğələlər hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsinə təkan verir.

Mayor A.Məhərov bölmənin ümumi fəaliyyətində əzmkarlığın ruhlandırıcı cəhət olduğunu dedi.

Bölmə komandiri nümunəvi xidmətilə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan baş çavuşlar Elçin Dadaşov, Rüfət Rzayev, baş əsgər Tacəddin Qardaşov və əsgər Elvin Xudaverdiyevin adlarını qeyd etməyi unutmadı.

**kapitan Sadıq Rəfiyev**

# Döyüş xidmətində ayıq-sayıqlıq əsas cəhətlərdən biridir

17072 saylı hərbi hissənin qabaqcıllarından olan komendant bölüyü 2019-2020-ci tədris ilinin dördüncü tədris dövrünün yekunlarına görə hərbi hissənin bölükləri arasında birinci yerə layiq görülüb. Bölüklər arasında nailiyyətləri ilə fərqləndiyinə görə hərbi hissə komandiri tərəfindən fərmanla mükafatlandırılıb. Məlumdur ki, hərbi hissənin ərazisinin, döyüş bayrağının, anbarların, avtomobil parkının etibarlı mühafizə və müdafiəsini təmin edən bölüyün şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı hər zaman xüsusi önəm daşıyır. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi üçün hərbi intizamın möhkəmləndirilməsi olduqca vacibdir. Bu işdə bölük komandiri baş leytenant Elçin Həmidovun əməyi böyükdür.





Qarovul nəfərlərinin seçilməsində bir sıra vacib amillərə diqqət yetirildiyini deyən baş leytenant E.Həmidovun sözlərinə görə, xidmətə cəlb edilməmişdən bir gün öncə hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Mütəmadi olaraq aparılan söhbətlərin məqsədi psixoloji durumunda, əhval-ruhiyyəsində hər hansı bir problem aşkar edilən hərbi qulluqçunun xidmətdən kənarlaşdırılmasıdır. O, bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rəşad Fikirinin və bölüyün başçavuşu baş çavuş Rövşən Məmmədovun fəaliyyətini də qeyd etdi.

Bölüyün hərbi qulluqçularının asudə vaxtlarının səmərəli təşkil olunması da hər zaman diqqətdə saxlanılır. Burada hərbi qulluqçuların istirahəti üçün lazımi şərait yaradılıb. Belə ki, asudə vaxtlarda şəxsi heyət mətbuatı mütaliə edir, stolüstü oyunlar oynayır, qulaqcıqlar vasitəsilə radioya qulaq asır.

Komendant bölüyünün əsgərləri ilə söhbətləşərkən onlarda yüksək əhval-ruhiyyənin olmasının şahidi oldum. Çünki bütün əsgərlərin arzusu olan torpaqlarımızın düşməndən azad olunması onların hərbi xidmət dövrünə təsadüf edib. Onlar müzəffər Silahlı Qüvvələrimizin hərbi zəfərindən qürur hissi yaşayırlar.

Komendant bölüyünün şəxsi heyətinin hərbi hissə komandanlığı tərəfindən daim diqqət və qayğı ilə əhatə olunduğunu bildirən bölük komandiri qabaqcıl hərbi qulluqçulardan baş əsgərlər Ələkbər Əlizadə və Rahib Dadaşzadə, əsgər Şahin Nurməmmədzadənin xidmətlərini yüksək qiymətləndirdi, onların digər yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

Sonda baş leytenant E.Həmidov "44 günlük Vətən müharibəsi zamanı Ermənistanın cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncəni bir neçə dəfə raket atəşinə tutması posta çıxan saatdarları bir an belə qorxutmadı. Əksinə, daha da məsuliyyətli, ayıq-sayıq, mərdliklə xidmət aparıblar, çünki onlara güvənənləri qoruyurlar" - dedi.

**kapitan Sadıq Rəfiyev**

3_Layout 1 14.01.2021 17:38 Page 1



*Şəhidlərimiz*

# Döyüş tapşırıqlarının yerinə yetirilməsində rəşadət göstərdi...

**Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, eləcə də vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmiş Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 11 nəfər hərbi qulluqçusundan biri də ölümündən sonra bu mükafata layiq görülmüş kapitan Hüseynli Türkay Nizami oğludur.**

**Ölkə başçısının, həmçinin, 15 dekabr 2020-ci il tarixli və 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə kapitan Türkay Hüseynli (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə də təltif edilib.**



Kapitan Türkay Hüseynli 1990-cı il noyabrın 25-də Bakı şəhərində anadan olub. Hüseynovlar ailəsində böyüyüb boya-başa çatan və tərbiyə alan 4 övladdan (Sədi, Natəvan, Şahnabat və Türkay) biri, həmçinin, ailənin sonbeşiyi və vüqarı idi Türkay...

Orta təhsilini Daxili Qoşunların Birinci Qarabağ müharibəsində şəhid olmuş giziri Etibar Şirəliyevin adını daşıyan 274 saylı orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmətini 2009-2010-cu illərdə Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Hələ uşaq yaşlarından hərbi xidmətə olan böyük həvəsi sayəsində Türkay müddətli hərbi xidmətini başa vurduqdan sonra elə həmin hərbi hissənin xüsusi təyinatlı dəstəsində qalaraq, 2012-ci ilin iyul ayınadək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə olan şərəfli borcunu yerinə yetirməyə başlayıb. Zabit kimi xidmətini davam etdirmək arzusunda olan silahdaşımız, 2012-ci ildə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbinə daxil olub. 2014-cü ildə bu hərbi təhsil ocağını bitirərək "leytenant" hərbi rütbəsi alan Türkay zabit kimi ilk olaraq qoşunların 16073 saylı hərbi hissəsində fəaliyyətə başlayıb. 2019-cu ilin fevral ayınadək burada müxtəlif bölmələrin tərkibində taqım və qrup komandiri vəzifələrində xidmət edib. Bir komandir kimi hər zaman yüksək hərbi intizamı, çalışqanlığı və biliyi sayəsində böyük rəislərin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağa müvəffəq olub. Yüksək döyüş hazırlığı, nümunəvi və qüsursuz xidmətilə fərqlənən hərbi qulluqçu kimi "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla, eləcə də hərbi hissə komandanlığı tərəfindən bir sıra mükafatlarla təltif edilib.

T.Hüseynli xidmət etdiyi dövrdə iki dəfə - 2010-cu ilin sentyabr ayından 2011-ci ilin iyun ayınadək və 2019-cu ilin fevral ayından iyul ayınadək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında müvafiq olaraq "Gizir komando təməl kursu" və "Zabit komando təməl kursu"nda təhsilini davam etdirib.

Sonuncu kursu da müvəffəqiyyətlə başa vuran T.Hüseynli, 2019-cu ilin iyul ayından etibarən Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri vəzifəsində xidmət edib.

Vətən qarşısındakı müqəddəs borcunu şərəflə yerinə yetirən vətənpərvər hərbi qulluqçu kimi işğal olunan torpaqlarımızın azadlığı üçün döyüş meydanında düşmənlə savaşmaq və lazım gələrsə, bu amal uğrunda şəhidlik məqamına yüksəlmək Türkayın ən böyük arzusu olub.

16075 saylı hərbi hissədə "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Qarabağ" ordeni və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmiş mayor Ələsgər Muxtarov (Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində gedən döyüşdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi qrup komandirinin mərdliyi və qorxmazlığı haqqında bu gün də ürək dolusu danışır: "44 gün davam edən Vətən müharibəsində dəstəmizin 6 nəfər hərbi qulluqçusu qəhrəmancasına vuruşaraq şəhid olub. Onlardan biri də qrup komandiri kapitan Türkay Hüseynlidir.

Bir komandir kimi fəaliyyətinə gəlincə, deyə bilərəm ki, istər nəzəri, istərsə də keçirilən bütün praktiki məşğələlərdə ən aktiv qrup komandirlərindən biri olub Türkay. Ümumilikdə isə qarşıya qoyulan bütün tapşırıqları vicdanla yerinə yetirib. Olduqca vətənpərvər, ləyaqətli hərbi qulluqçu kimi tabeliyində olan şəxsi heyət üçün hər zaman nümunə idi.

Yaxşı yadımdadır, döyüş öncəsi şəxsi heyətə tapşırıqlar verirdim. Bu vaxt Türkay böyük əzmlə: "Cənab mayor, ölmək var, dönmək yoxdur" – dedi və üzünü şəxsi heyətə tutub ardınca da: "Xüsusi təyinatlı illərlə yaşayır, lakin bir dəfə lazım olur, o da məhz Azərbaycanın ərazi bütövlüyü uğrundadırsa, sevə-sevə canımızdan keçməyə hazır olmalıyıq" - deyə qürur hissi ilə fikrini bitirdi.

Gözündə heç zaman qorxu hissi olmazdı. Elə döyüşə də gözünü qırpmadan atıldı. Onun qrupu döyüş tapşırıqlarının yerinə yetirilməsində rəşadət göstərdi...".

**3 oktyabr 2020-ci il...** Cəbrayıl istiqamətində gedən döyüş Türkayın son döyüşü oldu. Komandiri olduğu qrupun şəxsi heyəti ilə birgə rayonun Böyük Mərcanlı kəndi ətrafındakı yüksəklikdə düşmənin 30 il ərzində möhkəmləndirilmiş birinci müdafiə xəttini darmadağın etdi. Ermənilərin xeyli sayda canlı qüvvəsi, o cümlədən, 8 tankı və 1 topu məhv oldu. Lakin düşmənin bu istiqamətdəki ikinci müdafiə səddinin yarılması uğrunda gedən şiddətli döyüşün gedişində erməni snayperinin açdığı atəş nəticəsində ağır yaralanan kapitan Türkay Hüseynli qəhrəmancasına şəhid oldu...

Bu döyüşdə cəsur komandirlə birgə onun tabeliyində vuruşan Daxili Qoşunların digər 2 nəfər igid hərbi qulluqçusu – çavuş Məmmədov Elvin Tərlan oğlu və MAXE əsgər Abasov Ayaz Nizami oğlu da qəhrəmanlıq göstərərək şəhid oldular.

Kapitan T.Hüseynli 2020-ci il oktyabrın 3-də Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunub. Subay idi.



**Hər qarış torpağa göz bəbəyini,**
**İstəsələr verrəm, deyildir qəmim.**
**Silah götürməsəm də, köməyini,**
**Əsirgəyən deyil şair qələmim.**

**Bir yığın arzum var, qəlbimdə yenə,**
**Ata da bilmirəm bu həyəcanı.**
**Birinci yer verim hansı birinə,**
**Çiçəkli görməkdir Azərbaycanı.**

Bu misralar şəhid zabitimizin atası şair Nizami Elyanar Göyçəviyə məxsusdur. 8 kitabın müəllifi olan Nizami müəllim, eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. O, Türkay kimi şəhid oğullarımızla qürur duyduğunu deyir: "Türkayla sonuncu dəfə oktyabrın 2-də saat 18:20-də danışmışdıq. Özü zəng etmişdi. Dedim: "Milli Qəhrəman, necəsən?". Təvazökarlıq elədi, dedi: "Ata, hələ ona tezdir". Çox danışmadıq. Sonra "Problem yoxdur, yaxşıdır hər şey. Sağlıq-salamatçılıqdır. Özünüzdən muğayat olun. Narahat olma" – dedi və bundan sonra telefon əlaqəsi kəsildi...

Müharibəyə hazır vəziyyətdə getmişdilər. Yoldaşları ilə birgə xüsusi igidlik göstəriblər. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv ediblər. Texnikalarını ələ keçiriblər. Həmin döyüşdə oğlum Türkay Hüseynli şəhid oldu...

Şəhidlik onun üçün sanki bir amal, bir əqidə yolu idi. Hələ 3 il bundan öncə, Daxili Qoşunların Qubada yerləşən hərbi hissəsində xidmət edən dövrdə məzuniyyətə gəlmişdi. Gəlib yanımda, bir az aralı oturub, nədənsə "Şəhidlik məqamına yüksəlmək lazımdır" – deyə, bir fikir səsləndirdi. Düzü, başım qarışıq olduğundan, həmin vaxt bu sözü nə üçün deməsinə fikir vermədim. O da gördü ki, məşğulam, başım qarışıqdır, artıq heç nə danışmadı. Lakin indi başa düşürəm ki, sən demə, bu müqəddəs zirvəyə yüksəlmək onun həyat məsləyi olubmuş...

Qüsursuz və nümunəvi xidmətinə görə vaxtından əvvəl ona "kapitan" hərbi rütbəsi vermişdilər.

Hələ evlənməmişdi. Noyabrın 25-də 30 yaşı tamam oldu. Mənim oğlum sağdır. Ölməyib. Şəhidlər ölmürlər...".

Türkayın ailə üzvlərinin, yaxın qohum və dostlarının, həmçinin, vaxtilə tabeliyində xidmət etmiş hərbçi yoldaşları – baş çavuş Musa Qədirov, çavuşlar Rasim Hacıyev, Kamal Məmmədli və Tahir Babayevin xatirələri əsasında "Real" televiziya kanalının, o cümlədən, "APA" TV və "Report.az" saytlarının "YouTube" internet portalı vasitəsilə yayımlanan xəbər proqramlarında "Şəhidlik xüsusi təyinatdır" və "Anası şəhid olduğu günə qədər müharibədə olduğunu bilmədi" adlı süjetlərdə qəhrəman zabitimizin gənc nəslə nümunə olan həyat və hərbi xidmət yolu barədə məlumatlar izləyicilərə təqdim edilib. Bundan əlavə, "Xalq qəzeti"nin 27 dekabr 2020-ci il tarixli sayında Əli Nəcəfxanlının müəllifi olduğu "Kapitan Türkayın rəşadət dastanı" başlıqlı məqaləsində şəhid silahdaşımızın həyat və döyüş yolu geniş işıqlandırılıb.

**Sonda şəhid atası Nizami Elyanar Göyçəvinin qeyd etdiyi kimi, yalnız onu deyə bilərik ki, bəli, həqiqətən də şəhidlər ölmürlər. Vətən uğrunda canını qurban verən Türkay kimi igid oğullarımızın əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.**

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

# HƏRBİ ZƏFƏRİMİZİN QAZANILMASINDA HƏR BİR QAZİNİN LAYİQLİ TÖHFƏSİ VAR

Azərbaycanın işğalçı Ermənistana qarşı Vətən müharibəsi (27.09 - 09.11.2020-ci il) müasir müstəqillik tariximizin şərəfli və qürurverici səhifəsidir. Bu müharibədə Azərbaycan xalqının qeyrətli, vətənpərvər və mübariz oğulları döyüş meydanında düşməni məğlubiyyətə uğradaraq, hünər nümunələri nümayiş etdirdilər. Rəşadətli Silahlı Qüvvələrimiz bizi doğma Qarabağımıza qovuşdurdu. Yüz minlərlə məcburi köçkünün üzərindən bu ad götürüldü.



çavuş İlkin Abuyev

44 günlük müharibə ordumuzu və onun sıralarında xidmət edən gənclərimizi gözümüzdə daha da ucaltdı. Qalib olmağı bacaran zabit və əsgər yetişdirən dövlət, cəmiyyət, xalq xoşbəxtdir. Məğlubedilməz zabit və əsgərlərimizə güc verən amillər Vətən sevgisi, millət təəssübkeşliyi, şəhidlik və qazilik zirvəsinə ehtiram hissi, ailələrinin xeyir-duası, tariximizdən qaynaqlanan qan yaddaşına bağlı döyüş ruhu oldu. Döyüşlərdə iştirak edən hərbi qulluqçularımız ya şəhid, ya da qazi olmaq, Vətən müdafiəçisi adını doğrultmaq, hərbi anda sadiq qalmaq əqidəsi ilə vuruşdular.



baş çavuş Elnur Cəfərov

Əsas amal Vətən torpağının düşmən tapdağından qurtulması, onun azadlığıdırsa, Azərbaycan zabiti və əsgərinin qarşısında aşılmayacaq heç bir maneə və ya sədd yoxdur.

Vətən müharibəsində hərbi zəfərimizi reallığa çevirənlərin ön sıralarında olmuş yaralı hərbi qulluqçularımızın da fədakarlığı heç vaxt diqqətdən kənar qalmayacaq və unudulmayacaq. Daxili Qoşunların bir çox zabit, gizir və müddətdən artıq xidmət edən çavuş və əsgər rütbəli hərbi qulluqçusu Vətən müharibəsi dövründə ön cəbhənin ayrı-ayrı istiqamətlərində döyüş tapşırıqlarını yerinə yetirərkən müxtəlif dərəcəli yaralanıb. Kiçik və iriçaplı odlu silahlardan, mina partlayışından yaralanma halları az deyil. Bu yaralar onların necə şiddətli döyüşlərdən keçdiklərini, qorxu bilmədən, cəsurluqla düşmənin üzərinə həmlə etdiklərini göstərir. Hətta ikinci dəfə, eləcə də bədəninin ayrı-ayrı nahiyələrindən yaralananlar var. Həmin yaralıların bir qismi uzunmüddətli müalicə və reabilitasiya mərhələsindən keçəcək. Ağır yaralıların bəzilərini sıralarımıza qaytarmaq mümkün olmayacaq, ancaq onlar hərbi xidmətdən tərxis edilsələr də, həyatları boyu Vətən müharibəsi iştirakçısı və qoşunların veteranı adını şərəflə daşıyacaqlar. Bəli, qoşunların müharibə veteranlarının cərgələri genişlənir. Birinci Qarabağ müharibəsi veteranlarının başladıqları döyüş yolunu yeni nəsil veteranlar ləyaqətlə başa vurdular.

Yaralı hərbi qulluqçularımızın arasında Birinci Qarabağ müharibəsi veteranlarının oğulları da var. Oğullar ataların 1992-1994-cü illərdə barıt qoxulu səngərlərdə üzləşdikləri sınaqlarla qarşılaşdılar, ancaq onların o vaxtkı döyüş əzminə yeni nəfəs verdilər. Yeni döyüşçülər nəsli əvvəlkindən güclü dövlətin yetirməsi olduğunu layiqincə isbatladı. Belə faktlar iftixar hissi doğurur və cəmiyyət üçün dəyərli örnəkdir.

Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla təltif edilən Vətən müharibəsi iştirakçıları siyahısında yaralı hərbi qulluqçularımızın da adlarının olması onların xidmətlərinin dövlət səviyyəsində yüksək qiymətləndirilməsinin təzahürüdür. Həmçinin, əlillik dərəcələri alan yaralı hərbi qulluqçularımıza aidiyyəti təqaüd və müavinətlər təyin olunub. Dövlətimiz Vətən müdafiəçilərinə öz qayğısını heç vaxt əsirgəmir. Vətən müharibəsi iştirakçılarının sosial təminatının möhkəmləndirilməsi yönündə kompleks tədbirlər həyata keçirilir və bu işlər davamlı xarakter daşıyır.

Azərbaycanın şəhər, qəsəbə və kəndlərində Vətən müharibəsi iştirakçılarının, o cümlədən, qazilərin necə coşqu və izdihamla qarşılandıqlarının şahidi oluruq. Onlara ümumxalq rəğbəti bu döyüşçülərə ruh yüksəkliyi aşılayır, yerinə yetirdikləri vacib missiyanın ölkəmizin taleyi üçün necə böyük əhəmiyyət kəsb etdiyini təsdiqləyir. Bu gün televiziya kanallarında, radio efirlərində, dövri mətbuatda, sosial şəbəkələrdə Vətən müharibəsi iştirakçıları barədə geniş məlumat verilməsi, mövzunun ictimai gündəmdə xüsusi yer tutması cəmiyyətimizin döyüşçülərə həssas münasibətinin, mənəvi dəstəyinin ifadəsidir.



gizir Şiraz Həsənov

Müharibədə döyüş tapşırıqlarını yerinə yetirərkən yaralanan hərbi qulluqçulara atəş altında ilk yardım göstərilməsi, onların təhlükəli ərazidən təxliyyəsinin təşkili əksər halda çətin və riskli olub. Ancaq buna baxmayaraq, özləri düşmən tərəfindən hədəfə alınsalar belə, hərbi qulluqçularımız yaralanan silahdaşlarını döyüş meydanından çıxarıblar. Hərbi qospital və xəstəxanalara çatdırılan bir çox ağır yaralının sağ qalmasında onların döyüşçü yoldaşlarının da rolunu danmaq olmaz. Hətta yaralı yoldaşını xilas edərkən şəhid olan hərbi qulluqçularımız barədə döyüşçülər göz yaşı ilə danışırlar. Bu, əsl döyüşçü qardaşlığı nümunəsidir. Məhz belə nümunələr hərbi qulluqçularımızın mənəvi cəhətdən zənginliklərini, qəlbi imanlı olduqlarını, insani keyfiyyətlərinin bütövlüyünü, yoldaşlıqda etibarlılıqlarını açıb göstərir.



baş çavuş Əfqan Zaxmayev

Mərd hərbçilərimizi yaralı vəziyyətdə hərbi qospital və ya xəstəxana çarpayısında görmək müharibənin acı bir gerçəkliyidir. Kimlər üçünsə müharibədə bu vəziyyətdə belə sağ qalmaq şansı əlçatmaz olur. Düşmənin üzərinə atılan qorxmaz hərbi qulluqçu öz aqibətini deyil, nəyin bahasına olursa-olsun, hədəfə çatmağı, komandirin döyüş əmrini uğurla yerinə yetirməyi düşünür. Məhz belə döyüşkənlik əzmi ilə o, qarşısındakı düşməni susdurmağa, onu darmadağın etməyə özündə güc tapır.



çavuş Zeynal Məmmədov

Hərbi qulluqçularımız döyüşlərdə düşmənin güllə və mərmilərindən yaralansalar da, bütün fiziki ağrılara və müalicənin çətinliklərinə baxmayaraq, müharibədən zəfərlə qayıtmaları ilhamverici faktor olaraq onlara nikbin ovqat, müsbət əhval-ruhiyyə bəxş edir.

Xalqımızın başını uca edən hərbi zəfərin qazanılmasına verdiyiniz dəyərli töhfə həmişə minnətdarlıqla qeyd ediləcək, yaralı silahdaşlarımız!

**Yalçın Abbasov**

# 2021-ci il Azərbaycanda “Nizami Gəncəvi İli” elan edilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdən olması qeyd olunub. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətiribdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoyub. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan verib.

Bundan əlavə, Nizami Gəncəvinin yubileylərinin ölkəmizdə hər zaman təntənə ilə keçirilməsi sərəncamda öz əksini tapıb. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaradıb. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli Lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirib. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsi, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açıb. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilib.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur.

Beləliklə, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyəti nəzərə alınaraq, 2021-ci il Azərbaycan Respublikasında “Nizami Gəncəvi İli” elan edilib.

Bununla yanaşı, sərəncamın 2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “Nizami Gəncəvi İli” ilə bağlı müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

**Mətbuat xidməti**

# Hərbi qulluqçuların sağlamlığının qorunması sağlam və keyfiyyətli qidalanmadan da asılıdır

Yüksək döyüş hazırlığını qoruyub saxlayan 17072 saylı hərbi hissənin komandanlığının diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, keyfiyyətli qidalanmadan da asılıdır.

Hərbi hissənin yeməkxanası şəxsi heyəti gün ərzində üç dəfə sağlam qida ilə təmin edir. Hərbi qulluqçuların milli xörəklərdən ibarət keyfiyyətli qida ilə təmin olunması üçün burada hər cür şərait yaradılıb.

Ərzaq xidmətinin rəisi vəzifəsini icra edən kapitan Elnur Eyyubov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları”na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş “Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə”yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan yeməkxanada lazımi tədbirlər görülür.



Kapitan E.Eyyubov şəxsi heyətin gündəlik qida rasionu barədə məlumat verdi. Bildirdi ki, həftə ərzində hərbi qulluqçulara birinci xörək düyü şorbası, noxud əzməsi, mərci şorbası, küftə, bozbaş, borş, ikinci xörək olaraq isə makaron süzməsi, lobyalı və ya mərcili düyü plovu ət qovurması ilə, qarabaşaq, dolma, kotlet kimi yeməklər verilir. Gündəlik olaraq, mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə, qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. Zabit şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını da bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Xidmət rəisi qeyd etdi ki, bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə qidalanma zamanı sosial məsafənin gözlənilməsinə riayət edilir. Hər qida qəbulundan sonra masaların, mətbəx qablarının və avadanlıqların yuyulmasına, dezinfeksiya tədbirlərinə nəzarət gücləndirilir.

Kapitan E.Eyyubov görülən işlərdə yeməkxana rəisi vəzifəsini icra edən kiçik gizir Toğrul Məmmədovun əməyini xüsusilə vurğuladı. Onun vəzifəsinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlar Hüseyn Şabanov, Cavid Məlikzadə, işçi-aşpazlardan Vaqif Məmmədov, Aynur Əsgərova və Sevda Abbasovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Sadıq Rəfiyev**

# CAMAŞIR-İŞÇİLƏRİN ƏMƏYİ TƏQDİRƏLAYİQDİR

***67987 saylı hərbi hissənin sosial şəraiti ilə tanışlığım zamanı şəxsi heyətin məişətinin müasir standartlar səviyyəsində təşkil olunduğunun da şahidi oldum. Ən son avadanlıqlarla təchiz olunmuş hamam-camaşırxana və digər məişət otaqlarındakı şərait hər bir əsgərə diqqət və qayğı göstərildiyinin sübutudur.***



Daxili Qoşunların hərbi hissələrində yaradılmış səliqə-sahmanın, göz oxşayan yaşıllıqların qorunub saxlanılması, şəxsi heyət arasında sanitar-gigiyenik vəziyyət və bu qaydalara ciddi riayət olunması hissə komandanlıqları qarşısında qoyulan əsas tələblərdəndir.

Qarşıya qoyulmuş tələblərin yerinə yetirilməsində, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında təkcə hərbi qulluqçuların deyil, mülki işçilərin də əməyindən geniş istifadə olunur. Camaşırxanada şəxsi heyətin həftə ərzində istifadə etdiyi yataq ağlarının və paltarlarının yuyulması, qurudulması və s. işlər onlar tərəfindən həyata keçirilir. Burada çalışanların da təmiz geyim formaları göz oxşayır.

Bu baxımdan hərbi hissənin camaşırxanasında çalışan işçilərin fəaliyyəti təqdirəlayiqdir. Qeyd etmək lazımdır ki, camaşırxana yataq ağlarının və paltarların yuyulması, qurudulması, çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Təminat bölüyünün təminat taqımında hamam-camaşırxana kombinatının rəisi baş çavuş Elvin Miriyev tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı və onların işgüzarlıq və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, camaşır-işçilər Səyyad Mustafayeva, Sevda Həsənova, Gülbahar İsayeva və Solmaz Əliyeva öz işlərinə məsuliyyətlə yanaşır, hər bir əsgərin qayğısına qalır, onları öz doğma övladları qədər sevirlər. Çünki şüurlu surətdə dərk edirlər ki, güclü əsgər Vətən torpağının bölünməzliyi deməkdir.

Mülki işçi olmalarına baxmayaraq, hərbi qulluqçulara xas keyfiyyətlərə malik olan camaşır-işçilər bundan sonra da üzərlərinə düşən vəzifələri yerinə yetirmək üçün səylə çalışacaqlarını bildirdilər.

**kapitan Sadıq Rəfiyev**

# DÖYÜŞ MEYDANINDA QAZANDIĞIMIZ QƏLƏBƏ DÜŞMƏNİN GÖZÜNÜ KOR EDƏCƏK QƏDƏR PARLAQDIR



Noyabr ayının 10-u Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı. Məhz bu gün uzun illər torpaqları işğal altında olmuş, ərazi bütövlüyü müzakirə mövzusuna çevrilmiş, öz doğma ocaqlarından qaçqın və məcburi köçkün kimi didərgin salınmış həmvətənlərimiz üçün əsl zəfər bayramı oldu. Belə ki, sentyabrın 27-dən noyabrın 9-na kimi davam edən 44 günlük müharibə dövründə Ermənistan dövləti müzəffər Azərbaycan Ordusunun necə qüdrətli, güclü olduğunun şahidi oldu. Döyüş meydanında düşmənə həqiqi mənada göz dağı verən igid oğullarımız xalqımızın başına gətirilmiş bəlaları, soyqırımları unutmadıqlarını fədakarcasına sübut etdilər.

Dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz tərəfindən düşmən mövqelərinə vurulan zərbələr nəticəsində tam üstünlüyə nail olan ordumuzun əldə etdiyi uğurlar dünya mediasının dilindən düşmədi. Qələbəyə gedən yolda yorulmadan Azərbaycan həqiqətlərini müxtəlif ölkələrin mediasına çatdıran Prezident İlham Əliyev bu sahədə əldə olunan uğurları düzgün seçilmiş strategiyanın nəticəsi kimi dəyərləndirib. Qələbəmiz üçün çoxşaxəli fəaliyyət göstərərək, uzun illərin həsrətinə son qoyan, ölkə vətəndaşlarına sevinc bəxş edən uzaqgörən siyasətçiyə hər kəs bir nəfər kimi minnətdardır. Təbiidir ki, Vətən müharibəsində qazanılan qələbənin göz önündə olan bütün səbəbləri ilə yanaşı, ən birinci faktor şəxsi heyətin vətənpərvərlik ruhunun yüksək olması idi.

Bu baxımdan böyük qürur hissilə qeyd edə bilərik ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də vətənpərvərlik əqidəsinə və hərbi anda sadiq qalaraq, rayonlarımızın azad olunmasında fədakarlıq, qəhrəmanlıq nümunəsi göstərib. Şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, onlara vətənpərvərlik hisslərinin aşılanması həmişə komandanlığın diqqət mərkəzində olub və bu gün də belədir.

Müharibə müddətində Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarənin mənəvi-psixoloji hazırlıq şöbəsinin zabitləri tərəfindən döyüş bölgəsində, işğaldan azad olunmuş rayonlarda ezamiyyətdə olarkən şəxsi heyətlə vətənpərvərlik mövzularında söhbətlər aparılması məhz bu qəbildəndir.

Daxili Qoşunların mətbu orqanı olan “Əsgər” qəzeti də şəxsi heyətin mənəvi tərbiyəsində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Ölkəmizin şanlı zəfər tarixinin şahidi olan “Əsgər” qəzetinin redaksiyası hərbi-vətənpərvərlik mövzusunda məqalələrlə şəxsi heyəti mənəvi cəhətdən ruhlandırmağı başlıca vəzifə borcu hesab edir. Yarandığı gündən bu günədək öz tarixi missiyasına sadiq qalan mətbu orqanımız hər zaman Vətən uğrunda canından keçən şəhid hərbi qulluqçularımızın fədakarlığına həsr olunan materiallara üstünlük verib. “Əsgər” qəzeti hər zaman olduğu kimi, bu gün də Vətən müharibəsi mövzusuna xüsusi fəxarət və qürur hissi ilə öz səhifələrində yer ayırır. Dərc etdiyimiz məqalələrdə tarixin şanlı səhifələri, qəhrəmanlıq nümunələri, soyqırım aktları oxucuların diqqətinə çatdırılır. Daxili Qoşunlarla birgə addım-addım irəliləyən, onun simasını əks etdirən, hərbi qulluqçuların marağına səbəb olan mövzularla çıxış edən qəzetimiz şanlı ordumuzun qələbə xəbərini verməyi uzun zaman gözlədi desək, heç də yanılmarıq. Keçən zaman gözümüzdən, könlümüzdən Qarabağ həsrətini, ana torpaq nisgilini silə bilmədi. Cənab Ali Baş Komandanın rəhbərliyi altında şanlı ordumuz bütün dünyaya xalqımızın mübarizlik ruhunu və döyüş əzmini bir daha nümayiş etdirdi.

**baş leytenant Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Rusiyanın raket qüvvələrinə 70 ədəd “Typhoon-M” zirehli maşınları təhvil verilib

Rusiyanın Strateji Raket Qüvvələrinə 70 ədəd “Typhoon-M” zirehli maşını təhvil verilib. Ordu.az xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

8x8 təkər formuluna malik döyüş maşınları izləmə və kəşfiyyat tapşırıqlarını yerinə yetirmək üçün nəzərdə tutulub.



Döyüş maşınlarına 7.62 mm pulemyot daşıyan uzaqdan idarə olunan silah stansiyası quraşdırılıb.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı və Təlim Mərkəzinin şəxsi heyəti baş leytenant Rüstəm Nuriyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası ehtiyatda olan **polkovnik-leytenant Nuşirəvan Mahmudovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin şəxsi heyəti kapitan Ramil Əliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin şəxsi heyəti MAXE çavuş Zahir Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti MAXE əsgər Cavad Qədirliyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000